■ Osman Fermanoğlu

## Bir Səhər Bax

İnciyərək gedib gendən baxanım
Bir səhər bax, bir günorta, bir axşam
Gün gəzəndə leysan-leysan yağanım
Bir səhər yağ, bir günorta, bir axşam.

Sən gedəli məni yenir ocağım
Tüstülənir, yanır-sönür ocağım
Qalamırsan külə dönür ocağım
Bir səhər yax, bir günorta, bir axşam.

Bu aləmdə baxan olmaz fağıra
Sənsiz məni quyudan kim çıxara?
İş düz gedər sən çıxanda uğura
Bir səhər çıx, bir günorta, bir axşam.

Sıxar məni uzaqlığın tilsimi
Tale belə sınamasın heç kimi
Bulaq olub, çalxalan da eşq kimi
Bir səhər ax, bir günorta, bir axşam.

*Osman*, düşüb Tanrının xoş vaxtına
Yazan yazıb gözəlliyi baxtına
Yer sənindi könlümdəki taxtına
Bir səhər qalx, bir günorta, bir axşam.